

İlqar Müzəfəroğlu

Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# “Qara qızıl”ın ələ keçirilməsinə edilən tarixi cəhdlər

II yazı

***Baybakovun yazdığına görə Stalin otaqda bir az gəzişdikdən sonra əlavə edib:***

***Nəzərə alın ki, əgər siz almanlara bircə ton da neft saxlasanız, sizi güllələyəcəyik!***

***Əgər siz neft mədənlərini vaxtından əvvəl məhv etsəniz, almanlar oraya gəlib çatmasalar və biz yanacaqsız qalsaq... yenə də sizi güllələyəcəyik...***

***Bu söhbətdən sonra N.Baybakov Dövlət Müdafiə Komitəsinin Qafqaz regionunda neft mədənlərinin məhv edilməsi üzrə müvəkkili təyin edilir. Növbəti gün Qafqaz neft mədənlərində xüsusi işlərin təşkili üzrə mütəxəssislər qrupu yaradılır, Xalq Daxili İşlər Komissarlığının partlayış sahəsində peşəkarları bu qrupa cəlb olunur. Bakı yenidən real partlayış təhlükəsi qarşısındadır...***

Hitler yeni direktiv imzalayır.

Direktiv 45

Fürerin baş qərargahı.

23.7.1942-ci il

6 nüsxə.

3-cü nüsxə.

...3. Tərkibində əsasən tank birləşmələri və mexanikləşdirilmiş birləşmələr olan qrup eyni zamanda cinahları təmin etmək məqsədi ilə bir hissə ayırıb onları Şərq istiqamətinə yönəltsin, həmin qrup Qroznı rayonunu tutmalı və həmin qüvvələr hərbi Osetiya və hərbi Gürcüstan yolunu imkan daxilində aşırımlarda bağlamalıdır. Son nəticədə Xəzər dənizi boyunca zərbə ilə Bakı rayonunu tutmalıdır.

İtaliya Alp korpusu “A” ordu qrupuna veriləcək. Bu əməliyyatlar üçün “A” ordu qrupuna kodlaşdırılmış “Edelveys” adı verilir. Məxfilik dərəcəsi: Tamamilə məxfi. Yalnız komandanlıq üçün.

1942-ci il avqustun 21-də nasist bayrağı Qafqazın və Avropanın ən yüksək nöqtəsi olan Elbrus dağının zirvəsinə taxılır. Düşmən Qroznının 60, Bakının isə 500 kilometrliyinə qədər gəlib çatır.

Bakı üçün real təhlükə yaranır...

1942-ci il sentyabrın 6-da Stalin son şans kimi Moskva radiosu ilə xalqa müraciət edir. Qafqazın hər cığırı uğrunda ölüm-dirim mübarizəsi gedir.

1942-ci il sentyabrın 15-də Beriya, Tülenev, Bağırov və başqa yüksək çinli məmurların iştirakı ilə Zaqafqaziya cəbhəsi Hərbi Şurasının iclası keçirilir.

Tamamilə məxfi.

Zaqafqaziya cəbhəsi Hərbi Şurasının qərarı:

15 sentyabr 1942-ci il.

1. Mahaçqala, Dərbənd və Bakı müdafiə xətlərinin tikilməsi birinci dərəcəli vəzifə hesab edilsin.

...4. Müdafiə xətlərinin tikintisinin başa çatma vaxtı aşağıdakı kimi müəyyən edilsin:

a) Mahaçqala müdafiə xətti 25 sentyabr 1942-ci il

b) Dərbənd müdafiə xətti 1 oktyabr 1942-ci il

c) Bakı müdafiə xətti 20 sentyabr 1942-ci il

Faşistlərin Qafqaza doğru sürətlə irəliləməsi Stalinin müttəfiqlərini də ciddi narahat etməyə başlayır. Onlar artıq Bakını xilas etmək, ən başlıcası isə Bakı neftinin faşistlərə çatmasının qarşısını almaq məqsədilə konkret hərbi yardım təklif edirlər.









Stalinin müttəfiqlərlə yazışması.

Baş nazir cənab Uinston Çörçilin cənab Staline son dərəcə məxfi və şəxsi məktubu:

30 sentyabr 1942-ci il:

***...Almanlar artıq Xəzər dənizində hərbi dəniz əməliyyatlarına rəhbərlik edəcək admiralı təyin ediblər. Onlar özlərinə əsas hərbi-dəniz bazası kimi Mahaçqalanı seçiblər.***

...Şübhəsiz, Siz bu tipli hücumlara artıq hazırlaşıbsınız. Mənə belə gəlir ki, Xəzərdə və Qafqaz döyüş cəbhəsində Sizin hərbi-hava qüvvələrinizin Amerikanlarla bizim köməyimizlə 20 Britaniya və Amerika eskadriliyası ilə möhkəmləndirilməsi barədə Sizə dediyim plan getdikcə daha böyük əhəmiyyət kəsb edir.

İ.Stalin U.Çörçilə:

3 oktyabr 1942-ci il.

Sizə deməliyəm ki, Stalinqrad rayonunda bizim vəziyyətimiz sentyabrın ilk günlərində pisləşdi. Almanların aviasiya ehtiyatları daha çox oldu və onlar bu qüvvələri Stalinqrad rayonunda cəmləşdirdilər və havada ikiqat üstünlük qazandılar. Quru qoşunlarını müşayiət etmək üçün bizim qırıcı təyyarələrimiz çatışmadı...

Artıq oktyabr ayında Hitler anlayır ki, Qafqaz neftini ələ keçirmək planları puça çıxıb. Onda qərara alınır ki, neft mədənləri bombardman edilsin, yandırılsın. Yenidən Bakı üzərini qara buludlar alır.



U.Çörçil İ.Stalinə

8 noyabr 1942-ci il:

Şübhəsiz, Sizə məlumdur ki, Hitler Bakını tutmaq ümidini itirdiyindən şəhəri hava zərbələri ilə dağıtmağa çalışacaq.

Xahiş edirəm mənim məlumatıma inanasınız.

İ.Stalin U.Çörçilə

9 noyabr 1942-ci il.

...Bakı haqqında xəbərdarlığınıza görə təşəkkür edirəm. Düşməni dəf etmək üçün tərəfimizdən tədbirlər görülür.

F.Ruzvelt İ.Stalinə

16 dekabr 1942-ci il

Mənə aydın deyil ki, Qafqaza Amerika aviasiyasının köməyi barədə bizim təklifimizə münasibət sahəsində nə baş verib? Mən Amerika pilotları və heyətləri ilə birlikdə aviasiya birləşməsi göndərməyə tam hazıram.

...Xahiş edirəm istəyiniz barədə mənə imkan daxilində tez məlumat verin, çünki mən bacardığım hər şeylə kömək etmək istəyirəm.

...Mən əsasən özlərinin Qafqaza qədər uçub gələ biləcək bombardmançı təyyarələri nəzərdə tuturam.

İ.Stalin F.Ruzveltə

18 dekabr 1942-ci il

Sizin kömək etməyə hazır olduğunuza görə çox təşəkkür edirəm. Uçuş heyəti ilə birlikdə ingilis-amerika eskadriliyası göndərilməsinə gəlincə, hazırda onların Zaqafqaziyaya göndərilməsi zərurəti aradan qalxmışdır.

...Əgər siz təyyarələrin, xüsusən qırıcı təyyarələrin uçuş heyəti olmadan - onlar Sizə indi çox lazımdır, - göndərilməsini sürətləndirsəniz, mən Sizə çox minnətdar olaram.

***Sovet aviasiyasının vəziyyəti elədir ki, təyyarəçilər həddindən artıq çoxdur, amma təyyarələr çatışmır.***

***Neft uğrunda son döyüş.***

***1942-ci il noyabrın 19-da ilk dəfə Qızıl Ordu müharibədə itirdiyi mövqeləri geri qaytarmağa başlayır.***

***1943-cü ilin yanvarında feldmarşal Paulyus başda olmaqla böyük bir ordu hissəsi təslim olur, Stalinqrad döyüşü sovetlərin qələbəsi ilə başa çatır.***

***Bütün bu illər ərzində Bakının neft hasilatında fasilə yaranmır. Cəbhəyə yollanan neftçi kişiləri qadınlar və uşaqlar əvəz edir. Bircə faktı xatırlatmaq kifayətdir ki, 1943-cü ilin iyul-avqust aylarında Kurskda gedən tarixin ən böyük tank döyüşlərinə Bakıdan göndərilən neftlə dolu dəmiryolu çənlərinin ümumi uzunluğu 1300 kilometr olub...***

Qafqaz regionunda dəmir yolları faşistlər tərəfindən dağıdıldıqda, Bakı neftçiləri dünyada ilk dəfə yeni daşıma üsulu kəşf ediblər: neft doldurulmuş müxtəlif iritutumlu çənlər Xəzər dənizinə buraxılıb, yedək gəmisi ilə Volqa çayı vasitəsilə daşınıb.

Bir sözlə, Bakı nefti faşizm üzərində Qələbənin qazanılmasında əvəzsiz rol oynayıb. Hər dəfə bu və ya digər dövlət başçısının Bakını partlatmaq, dağıtmaq istəyi real olsa da...

***

***Bakı, yoldaş Bağırova:***

***...Taman yarımadasında düşmənin sonuncu müqaviməti qırılmışdır. Qafqaz uğrunda ötən ilin payızında Terek çayı rayonunda, Tuapse yaxınlığında başlayan döyüşlərin son mərhələsi başa çatmışdır.***

***...Düşmənin darmadağın edilmiş hissələri məğlub olaraq biabırcasına Krıma doğru qaçmışdır. Qafqaza və onun sərvətlərinə, xüsusən Bakı neftinə qapılar düşmən üçün həmişəlik bağlanmışdır...***

***Şimali Qafqaz cəbhəsinin komandanı:***

***General-polkovnik İ.Petrov 9 oktyabr 1943-cü il. Bu, son demək idi... Bakı nefti uğrunda döyüşün sonu...***

***Bütün bu illər ərzində Bakının neft hasilatında fasilə yaranmır. Cəbhəyə yollanan neftçi kişiləri qadınlar və uşaqlar əvəz edir. Bircə faktı xatırlatmaq kifayətdir ki, 1943-cü ilin iyul-avqust aylarında Kurskda gedən tarixin ən böyük tank döyüşlərinə Bakıdan göndərilən neftlə dolu dəmiryolu çənlərinin ümumi uzunluğu 1300 kilometr olub... Qafqaz regionunda dəmir yolları faşistlər tərəfindən dağıdıldıqda, Bakı neftçiləri dünyada ilk dəfə yeni daşıma üsulu kəşf ediblər: neft doldurulmuş müxtəlif iritutumlu çənlər Xəzər dənizinə buraxılıb, yedək gəmisi ilə Volqa çayı vasitəsilə daşınıb.***